Ədəbiyyat qəzeti

# SƏRHƏD

## Dördpərdəli pyes



Hüseynbala MİRƏLƏMOV

***İştirakçılar:***

*Fedya - Azərbaycan Silahlı Qüvvələrinin zabiti, 49 yaşında mayor*

*Aşot - Ermənistan ordusunun zabiti, 48 yaşında polkovnik*

*Xaçatur - Aşotun babası, ağsaçlı ixtiyar*

*Nərminə - 16 yaşında azərbaycanlı qız*

*Altı nəfər yeniyetmə*

***Birinci pərdə***

*Tikanlı dəmir məftillərlə əhatə olunmuş sərhəd postu... İçərisi qumla doldurulmuş kisələr ətrafa səpələnib. Yaxınlıqdakı səngərlərin üstünə böyük təkərlər üst-üstə yığılıb.*

*Gecədir. Tikanlı məftillərin o biri tərəfində birisi yeyin addımlarla gəzişir. Ovucu ilə gizlədib siqaret çəkir, arabir tikanlı məftillərin bu biri tərəfinə diqqətlə baxır. Tikanlı məftillərin bu biri tərəfindəki adam da sol ovcu ilə sag əlindəki siqareti gizlədib. O da arabir tikanlı məftillərin o biri tərəfinə boylanır. Hərdən zəif işıqda üzü görünür. Üzü tüklüdür. Siqareti atıb yavaş-yavaş onları ayıran məftillərə yaxınlaşır.*

**Polkovnik:** - *(yavaş səslə)* Fed - ya, Fedya!

**Mayor:** - *(diksinir)* Yaxın gəlmə!

**Polkovnik:** - Fedya... Mənəm, Aşot. Tanımadın məni?

**Mayor:** - *(tələsmədən ona yaxınlaşır, diqqətlə baxır)* Aşot?!

**Polkovnik:** - Mənəm, dostum... Sən heç dəyişməmisən, gözlərin həminkidir, eynən yeniyetməliyində olduğu kimi... Görən kimi tanıdım. Qardaş! *(əllərini uzadaraq onu qucaqlamaq istəyir, amma məftillər mane olur)*

**Mayor:** - Elə sən də dəyişməmisən...

**Polkovnik:** - Yox, mən çox dəyişmişəm, saç-saqqalım ağarıb. Amma sən doğrudan da dəyişməmisən. Bir az saçın tökülüb. Bayaqdan baxıram... Görən kimi tanıdım səni. Yerişin də həmin yerişdir. Qamətin də şax, lap cavanlıqda olduğu kimi... *(Pauza.)* Heç ağlıma da gəlməzdi ki, səni burada görərəm...

**Mayor:** - Akademiyanı bitirəndən sonra müxtəlif yerlərdə işlədim. Hətta məni baş qərargaha da yaxşı vəzifəyə təyin etdilər, vaxtından əvvəl rütbə də verdilər. Bu məsələlər başlayandan sonra dözə bilmədim. Qayıtdım Bakıya, sonra da... Gördüyün kimi buradayam.

**Polkovnik:** - Mən çoxdandır Bakını ancaq televizorda görürəm. Görüntülərdə evimizi axtarsam da gözümə dəymədi...

**Mayor:** - Evimiz çoxdan sökülüb. Yerində böyük ticarət mərkəzi tikilib, park salınıb.

**Polkovnik:** - Uşaqlığımızı yerlə-yeksan elədilər...

**Mayor:** - Bizim uşaqlığımız çoxdan yerlə-yeksan olub. Sizinkilər bizim uşaqlıq xatirələrimizi yerlə-yeksan elədilər... Dilin də var danışmağa?! Heç olmasa sən kiri. Elə bir xəyanət elədiniz ki, körpüləri elə yandırdınız ki, çətin bir də geri dönüş mümkün olsun... Əgər belə olmasaydı biz indi səninlə müxtəlif cəbhələrdə döyüşməzdik.

**Polkovnik:** - Bu məsələlərin sənə nə dəxli, sən ki, azərbaycanlı deyilsən!?

**Mayor:** - Nə olsun? Atam-anam da, babam da Bakıda anadan olub, orada böyüyüb, orada dəfn olunub. Özüm də Bakıda doğulub boya-başa çatmışam. Böyüdüyüm həyətdə də tatar, azərbaycanlı, rus - müxtəlif millətlər bir yerdə yaşayıb. Necə mehriban idik. Azərbaycanlılar bizimlə özləri arasında heç fərq qoymurdular, xoş rəftar edirdilər. Sən ki, bunların şahidisən...

**Polkovnik:** - İki yəhudi vardı, iki tatar, iki rus, üç azərbaycanlı. Səkkiz nəfər də erməni... İndi bizlər sizin üçün müxtəlif millət olduq?!

**Mayor:** - Bizim söhbət etməyə ixtiyarımız yoxdur!

**Polkovnik:** - A kişi, kimdir bizi güdən çölün düzündə, gecənin bu vaxtı? Biz indi səninlə buranın ağasıyıq. Nə istəsək edə bilərik.

*(Pauza. Onu qucaqlamaq istəyir)* Fedya, uşaqlıq dostum!

**Mayor:** - Heç ağlıma gəlməzdi... Gör neçə il keçib...

**Polkovnik:** - Otuz ildən çox... Bu illərdə bir-birimizdən xəbər tuta bilməmişik. Amma uşaqlığımız, gəncliyimiz bir yerdə keçib. Bir həyətdə boya-başa çatmışıq, bir məktəbdə oxumuşuq. O günlər harada qaldı, Fedya?..

***İkinci pərdə***

*İşıqlar dəyişir. Fedya və Aşot məktəbdən evə qayıdırlar.*

**Aşot:** - Sən gördün o mənə necə baxırdı? Az qalırdı gözləri ilə yesin məni.

**Fedya:** - Özündən söz çıxarma. Nərminə sənə başqa cür baxa bilməz. Biz bir həyətdə yaşayırıq. O, dərsdə necə gopa basdığını görüb sənə elə heyrətlə baxırdı.

**Aşot:** - Nə gop e? Babam danışır da evdə. Deyir ki, türklər ermənilləri qırıblar... Babam deyirsə, demək onun dediyi düzdür. Mən onun dediyinə inanmalıyam, yoxsa tarix müəllimi Larisanın dediyinə?

**Fedya:** - Tarix yazılandı, deyilən yox... Axı sübutlar var.

**Aşot:** - Nə sübut-sübut salmısan e... Mən babama inanıram. Babam deyir ki, hər millət öz tarixini yazmağı bacarmalıdır.

**Fedya:** - Tarixi qəhrəmanlıqlarla, real olmuş hadisələr əsasında yazırlar, dostum. Daha yalan-palanla yox.

**Aşot:** - Yalan-palan niyə? Babam bu qədər kitab oxuyub. Deyirsən mənə yalan deyəcək?

**Fedya:** - Elə ona görə "iki" aldın də tarixdən. Yadından çıxarma ki, bu rüblükdə sənin üçüncü "iki"ndir. Belə getsə sən çətin attestat alasan.

**Aşot:** - Narahat olma. Atam hər şeyi həll edəcək.

**Fedya:** - Əgər həll edə bilməsə, əlvida, hərbi məktəb! Deyirlər İmamverdi müəllim düz adamdır, nə pula baxır, nə tapşırığa.

**Aşot:** - Mənim atam elə yerdə işləyir ki, düzü də əyə bilər. Polkovnik adamdır. Onların bir sözünü iki edən heç vaxt olmur.

**Fedya:** - Axı biz səninlə həmişə düz olacağımıza and içmişik. Qonşuluqdakı evin zirzəmisindəki divara öz adımızı yazmışıq. Həmişə, hər işdə doğru davranacağımıza, əbədi qardaşlığa and içmişik.

**Aşot:** - Dostluğun bu məsələyə nə dəxli?! Qəribə adamsan. Nəyə görə mübahisə edirsən? Kiminsə yazdığı tarixə görə?! Babam deyir ki, azərbaycanlılar tarixi saxtalaşdırıblar. Moskvada tarix institutunda adamları var. Onlar da bu işlərdə azərbaycanlılara köməklik göstəriblər.

**Fedya:** - Danışırsan da... Sənin baban belə deyir, tarix müəllimi isə bunun tam əksini dedi o gün. Xatırlayırsan? Dedi ki, ermənilərin öz torpaqları olmayıb. Harda sığınacaq veriblərsə orada yaşayıblar. Nə isə. Mən bircə şeyi bilirəm. Məktəbi yaxşı qurtarıb hərbi məktəbə daxil olmalıyam, özü də Moskvada. Bu babamın arzusudur. Atam Əfqanıstanda həlak olandan sonra babam ancaq bu arzu ilə yaşayır. Mən atamın yolunu davam etdirməliyəm.

**Aşot:** - Sən babanın arzusunu yerinə yetirmək üçün çalışırsan, mən də babamın söylədiyi həqiqətləri danışıram. Mənə atam da onun arzusunu yerinə yetirmək üçün kömək edəcəyinə söz verib. Əgər çətinliyin olsa utanma, de, sənə də kömək edər.

**Fedya:** - Mənim heç kəsin köməyinə ehtiyacım yoxdur...

İşıqlar dəyişir. Məktəbin həyəti. Futbol meydançasında iki komanda yarışır.

- Cəbiş, ötür!
- Xaça, vur!
- Cərimə! Qoqa, cəriməni sən vur!
- Qol!
- Musa, ötür!
- Musa, vur. Qol!

**Fedya:** - Uduzdunuz! Şərtimiz şərtdir. Məni kürəyində evə qədər aparmalısan!

**Aşot:** - Apar deyirsən, aparım də. Amma bil ki, bu uduzduğumuza görə yox, səninlə olan dostluğa görədir. Dost da gərək dostunun uğrunda canından keçməyi bacara.

Aşot Fedyanı belinə alıb aparır. Birdən gözü qarşıdan gələn Nərminəyə sataşır. Fedyanı kürəyindən yerə salır.

**Aşot:** - Nərminə... Biabır olmuşdum az qala. *(özünü səliqəyə salır)*

Görəsən, nə olub ona? Heç biz tərəfə baxmadı...

**Fedya:** - İmamverdi müəllimə görə dilxordu...

**Aşot:** - Pah, böyük iş olub!

**Fedya:** - Mən bilirəm ki, bu sənin işindir.

**Aşot:** - Haradan bilirsən?

**Fedya:** - Bunu bilməyə nə var ki? Özün demədin ki, atanın nüfuzu böyükdür, o, nə istəsə edə bilər. Atan İmamverdi müəllimdən xahiş edib ki, ikilərini düzəltsin. O da etiraz edib. Atan da öz gücündən, vəzifəsindən istifadə edərək onu işdən çıxartdırıb. Özü də dərs ilinin sonuna yaxın.

**Aşot:** - Bu sənin fərziyyələrindir. İmamverdi müəllim düz işləsəydi işdən çıxartmazdılar.

**Fedya:** - İmamverdi müəllimin səhvi ondan ibarət idi ki, həddindən artıq düz işləyirdi. Atan kimilər də bu düzlüyü qəbul edə bilmirdilər. Axı onlar öz əziz-xələf balalarını yaxşı institutlarda oxutmalı, sonra onlara yaxşı vəzifə verməlidilər ki, camaatı kor qoysunlar!

**Aşot:** - Dedim sənə ki, bu işlərdən mənim xəbərim yoxdur!

**Fedya:** - And iç!

**Aşot:** - Nəyə and içim?

**Fedya:** - *(diqqətlə ona baxır)* Dostluğumuza and iç ki, İmamverdi müəllimin işdən çıxarılması sənin atanın işi deyil.

*Aşot susur. Pauza.*

**Fedya:** - Mən gözləyirəm! Çörəyə and iç!

*Pauza. Aşotdan səs-səmir çıxmır. Nərminə görünür.*

**Aşot:** - Nərminə, bayaq yanımızdan düz keçdin, heç saymadın bizi... Nə yaxşı geri qayıtdın?!

**Nərminə:** - Niyə saymalıyam ki, səni?

**Aşot:** - Axı neyləmişəm mən Nərminə?

**Nərminə:** - Özün yaxşı bilirsən neylədiyini. Bunu bütün məktəb bilir.

**Aşot:** - Nərminə, vallah hamısı yalan danışır. Gedir e bunlar. Deyirlər ki, İmamverdi müəllimin işdən çıxmasını guya mənim n təşkil edib...

**Nərminə:** - Yoxsa elə deyil?

**Aşot:** - Vallah, elə deyil. Fedya da mənə inanmır. Bayaqdan deyir and iç çörəyə, elə bil uşaq-zadıq. O, başa düşmür ki, biz çoxdan uşaq deyilik. Bizim indi sevən, sevilən vaxtlarımızdır. Bizim yaxşı təhsil alıb, sonradan vətənə qulluq etmək vaxtlarımızdır. Mən səni çox istəyirəm. İlk dəfə həyətimizə köçəndən xoşuma gəlmisən. Bizim məktəbə köçürüləndə çox sevindim ki, hər gün bir yerdə olacağıq. Belə də oldu. Biz, demək olar ki, bir yerdə böyümüşük. Mən sənin xasiyyətini də öyrənmişəm. Biz yaxşı ailə olarıq...

**Nərminə:** - Bunu heç ağlına belə gətirmə. Özün də məndən uzaq dur.

**Aşot:** - Nərminə, inan ki, İmamverdi müəllimin işdən çıxarılması mənlik deyil. İşdi də olub. Bir də ki, İmamverdi axı bizim nəyimizdir ki, ona görə küsüşək? Bilirəm, Orxanın da səndən xoşu gəlir. Orxan axı sənə yaraşan deyil. Yetimin biridir. Nənəsi baxır ona. Mən anlamıram, Orxan axı sənin kimi gözəli necə saxlayacaq?! Atam deyir ki, vəziyyət dəyişir. Bir azdan hər şey başqa cür olacaq. Mən Moskvada Frunze adına hərbi məktəbə girəcəyəm. Sən də mənimlə gedərsən. Hansı instituta istəsən atam səni düzəldər. Cavab ver də, Nərminə. Elə baxma; mənə...

**Nərminə:** - Sən bu xəyalları harada qurursan özünə?

Nərminə başını bulayaraq aralanıb gedir. Fedya ilə Aşot bir-birlərinə baxırlar.

**Aşot:** - Görürsən? İnanmadı mənə.

**Fedya:** - Çünki həqiqəti demədiyini bilir.

**Aşot:** - Mən yalan danışmıram.

**Fedya:** - O zaman and iç. Dostluğumuza and içmirsən, onda çörəyə and iç. De ki, çörək haqqı İmamverdi müəllimin işdən çıxmasında sənin atanın əli yoxdur. And iç!

***Üçüncü pərdə***

*İşıqlar dəyişir. Sərhəd zonası. Gecədir.*

**Polkovnik:** - And iç!... And iç! Elə də yalvarırdın ki, and içim çörəyə. *(gülür)* Mən o vaxtlar da anlamırdım, elə indinin özündə də başa düşə bilmirəm ki, niyə müsəlmanlar çörəyi müqəddəs hesab edirlər? Bir tikə çörəyi yerdə görən kimi o dəqiqə əyilib götürür, gözlərinin üstünə qoyurlar. Çörəyi çörək edən adamdır. Amma "çörək haqqı" sözü hardan yaranıb bu müsəlmanlarda bilmirəm. Qonaq evlərinə gələndə çörəyi onların başlarının üstündən keçirirlər... Babam deyirdi ki, müsəlmanlar qorxanda çörəyi balışlarının altında saxlayırlar. Özüm də bunu sonra gördüm... Uşaqlar birini tutmuşdular. Bir dəfə döyüləndə gördüm ki, sol əliylə cibini möhkəm tutub. Əvvəl elə bildim qumbaradı, sonra əlini burub cibinə baxdıq, gördüm çörəkdi. Dedim, ay gic müsəlman, acından ölürsən, niyə yemirsən bu tikəni, dedi ki, yatanda başımın altına qoyuram ki, qorxmayım... And yeri olan bu bir tikə çörək mənə güc verir ki, sizinlə üzbəüz dayanım... Mən də bir güllə vurdum təpəsindən - dedim, görəsən indi o çörək səni xilas eləyəcəkmi?

*Pauza.*

**Mayor:** - Sən niyə bu qədər qəddar oldun, Aşot?

**Polkovnik:** - Əzizim, müharibənin, düşmənçiliyin öz qanunları var. Maraqlısı bilirsən nə idi? Uşaqlar onun meyidini dərədən atmağa aparanda deyirdilər üzündə təbəssüm vardı, ovcunda da bir tikə çörək... Başa düşə bilmirəm.

*Pauza.*

**Mayor:** - Siz belə şeyləri başa düşməzsiniz. İnsan torpağı şumlayır, əkir, biçir, min cür əziyyətlə çörəyi ərsəyə gətirir. İnsan ancaq çörəyə əyilir. Ona görə də əməyinin bəhrəsi olan çörəyi uca tutur, onu müqəddəs hesab edir. Hə... Bir də başqalarından fərqli olaraq, türklər çörək kəsdiklərinə xəyanət etmirlər. *(İstehza ilə ona baxır)*

**Polkovnik:** - Sənə nə olub belə? Sən ki, onlardan deyilsən?

**Fedya:** - Mən uşaqlıqdan belə görmüşəm...

**Polkovnik:** - Ona görə Nərminənin yanında mənə dedin ki, çörəyə and içim?

**Fedya:** - Nərminə yoxdur, çoxdan yoxdur...

**Polkovnik:** - Necə yəni yoxdur?..

**Fedya:** - Sizinkilər köçüb gedəndən sonra baban qaldı axı... Anam deyirdi ki, həyətdəkilər ona qulluq edirdilər. Nərminə lap çox qayğı göstərirdi. Məlum məsələlər başlayanda qonşularımızdan bəziləri evlərini dəyişərək başqa şəhərlərə köçdülər. Tədricən Bakıda daha "bakılı" azalmağa başladı. Təzə qonşulardan kimsə nişan verib ki, bir erməni nəvəsi ilə yaşayır. Onlar da Nərminəni güdüb sorğu-sual etmədən öldürmüşdülər... Sonradan hər şey aydınlaşdı... Məlum oldu ki, onu öldürən elə ermənilər olub. Sumqayıt hadisələrində olduğu kimi *(ironiya ilə Aşota baxır)*. Hətta öz aralarında erməni dilində danışırmışlar. Anam deyirdi ki, ata-anası bilmirdilər nə etsinlər, kimə şikayətə getsinlər... Yazıq Orxan isə bir tərəfdə dayanıb xısın-xısın ağlayırdı...

**Aşot:** - Bəs mənə niyə bunları deməmişdin?

**Fedya:** - Biz onda müxtəlif hərbi hissələrdə qulluq edirdik. Əlaqəmiz yox idi axı... 90-cı illərdə hər yerdə vəziyyət dəyişmişdi. Sən o vaxt Nərminəyə deyəndə ki, hər şey dəyişəcək, yəqin bunları nəzərdə tuturdun...

*Pauza.*

**Aşot:** - Nərminə... *(fikrə gedir)* Aradan illər keçib. Sən inanırsan ki, onun üzünü yadıma sala bilmirəm?! Bəzən olur ki, keçmişi gözümün qabağına gətirirəm. Babamı xatırlayıram, evimizi xatırlayıram, çay içdiyim fincanı, köhnə radiomuzu, həyətdəki köhnə qırmızı "Jiqulini" xatırlayıram. Özü də ən incə detalına qədər gözümün qabağında canlanır. Məhəllənin o sarı, qonur pişiklərini də xatırlayıram, bircə... *(susur)* Bircə Nərminədən savayı! Siması yadımdan çıxır. Nə qədər edirəm, sifətini yadıma sala bilmirəm. Fikirləşirəm ki, Nərminənin gözləri nə rəngdə idi? Göy, ala, qara - hansı rəng? *(əli ilə astaca başına vurur)* Bir də görürsən ki, gözləri düşür yadıma. Deyirəm hə, iri ala gözləri vardı. Amma qəribədir, birini yadıma salanda biri yadımdan çıxır. Gözlərini yadıma salanda üzünü unuduram. Dodaqları, çənəsi, yanaqları... Axı niyə belə olur? Axı mən Nərminəni sevirdim...

**Fedya:** - Sənə bir söz deyim, Aşot? Sən heç vaxt onu sevməmişdin. Sən sevməyə qadir deyilsən. Elə bilirsən sevməyi hər adam bacarır?!

**Aşot:** - Bunu mənə necə deyə bilərsən? Onu necə sevdiyimi səndən yaxşı kim bilirdi ki? Mən bütün hər şeyi sənə danışırdım, ancaq sənə. Başqa heç kimə. Mən müsəlmanlara, türklərə inanmırdım. Ancaq sən,. başqa heç kim. Sən də indi durub deyirsən ki, mən onu sevmirdim? Bunu necə deyə bilərsən?

**Fedya:** - Çox şeyin dəyişib, bircə şeydən başqa. Haqsız olduğunu biləndə hələ də sürətli və yüksək səslə danışırsan. Uşaqlıqda da belə idin.

**Aşot:** - Mən Nərminə barədə həmişə səmimi olmuşam.

**Fedya:** - Bəs niyə onu qoydun getdin? Niyə onu aparmadın?

**Aşot:** - Tək onu qoyub getmədim ki, babam da qaldı burada.

**Fedya:** - Sənə bir şeyi açıq deyəcəm. Mənə elə gəlirdi ki, sən babanı Bakıdan apara bilərdin. Özün istəmədin.

**Aşot:** - Nə?

**Fedya:** - Hə. Sən istəsəydin onu Bakıdan apara bilərdin, özün eləmədin. Nə babanı, nə də Nərminəni.

**Aşot:** - Fedya, bu illər ərzində azərbaycanlılar sənin düşüncəni tamam dəyişib.

**Fedya:** - Əksinə, indi həqiqətləri daha aydın görüb dərk edirəm.

**Aşot:** - *(qışqırır)* Nəyi dərk edirsən?

**Fedya:** - Bax, görürsən, yenə qışqırırsan, yenə çılğınsan, hikkədən nəfəsin kəsilir. Çünki düz danışdığımı başa düşürsən. Sən heç vaxt Nərminəni sevməmisən. Babanı da özün saxladın Bakıda.

**Aşot:** - Yəni yaşlı babamı türklərin əlində qoydum ki, babamı öldürsünlər, Nərminənin başına oyun açsınlar? Hə, bunu deyirsən sən?

**Fedya:** - Hə! Məhz bunu deyirəm. Sənin niyyətin bu idi. Bəlkə bu da sizin planınızın bir hissəsi idi, nə bilmək olar? Təxribat törədirdiniz. Ermənilər erməniləri öldürüb, günahı müsəlmanların üstünə yıxırdılar.

**Aşot:** - Axı niyə? Niyə belə şey eləyək?

**Fedya:** - Cavabı bir az qəribədir, elə sənin özün kimi. Axı sən həmişə ziddiyyətli insan olmusan. Ona görə də hərəkətlərinin məntiqini tutmaq, onlardan baş açmaq həmişə çətin olub. Amma mən səni uşaqlıqdan tanıyıram. Sən buradan gedəndən sonra etdiklərinin məntiqi ardıcıllığını izləyib tapdım. Sən ara qarışanda babanı özün burada saxladın ki, onu öldürsünlər. Elə də oldu. Bu sənə Rusiyada və digər ölkələrdə imkanlar qazandırdı. Hər yerdə dedin ki, sənin xəstə babanı guya amansız türklər öldürüblər.

**Aşot:** - *(sözünü kəsir)* Nə dediyinə özün inanırsan? Onsuz da o vaxt orada nə qədər adam ölmüşdü. Mənim babamın ölümü mənə nə verəcəkdi ki? Niyə buna görə öz babamı qurban verim?

**Fedya:** - Bax, məsələ də bundadır. Sənin beynin həmişə bu incəliklə işləyib. Bu elə incəlikdi ki, bunu başa düşmək üçün səni bir böcək kimi saatlarla tədqiq eləmək lazımdı. Buna isə heç kimin vaxtı yox idi. Elə mənim də...

Bilirsən, ilk dəfə hospitalda yatanda həkim dedi ki, bir neçə müddət hərəkətsiz uzanmalıyam, tərpənməməliyəm. İndi fikirləşirəm ki, həyatımın ən çətin, ən ağrılı günləri məhz həmin günlər, həmin aylar olub. Amma bir tərəfdən də həmin günlərə minnətdaram. Çünki o hərəkətsiz keçirdiyim günlərdə mən bütün həyatımı kino lenti kimi yenidən göz önündən keçirdim. Hər bir xırdalığına qədər. Ümumiyyətlə, başa düşdüm ki, insan ömrü boyu əslində öz uşaqlığını yaşayır. Ən qatı cinayətkar da, peşəkar hərbçi də hər kəs bu dünyada öz uşaqlığını yaşayır. Sən də, mən də.

**Aşot:** - *(kinayə ilə)* Və təbii ki, burada peşəkar hərbçi deyərkən özünü, qatı cinayətkar deyəndə isə məni nəzərdə tutursan. Amma səhvin var. Mən hərbə ömrümü qoymuşam. Vətənimin azadlığı uğrunda vuruşmuşam. Elə indi də vuruşuram.

**Fedya:** - Sən vətənin üçün yox, içindəki nifrət naminə vuruşursan. Sözümü tamamlayım, bu haqda da danışacağam.

*Baxışırlar. Aşot gözlərindəki nifrəti gizlədə bilmir.*

**Aşot:** - Eşidirəm.

**Fedya:** - Yadına gəlir, əvvəllər qırx pilləkən tərəfdə taxta avtomatlarla oyunlar oynayırdıq. Sonra taxtalar dəmirlərə əvəzləndi. Gerçək silahlarla döyüşməyə başladıq. Yəni əslində biz böyümədik, oyuncaqlarımız dəyişdi. Dünyadakı insanların çoxu belədir. Bəlkə də əlimizə aldığımız o silahlarla elə birinci içimizdəki uşağı öldürüb özümüzü guya böyümüş kimi aparırıq, amma heç vaxt böyümürük. Mən düz dörd ay demək olar ki, hərəkətsiz qaldım. Düz dörd ay arxası üstə uzanıb gözümü ağ tavana zillədim. Sən bunun necə dəhşətli bir şey olduğunu təsəvvür belə edə bilməzsən. Ağappaq tavan, başqa heç nə. Əvvəllər sıxılırdım, darıxırdım. Amma bir az zaman keçdikdən sonra o ağ tavan yaşadığım ömrün ekranına çevrildi. O ağ tavanda gördüklərim bütün düşüncələrimi kökündən dəyişdi. O ağ tavan qarşımda güzgü kimi açıldı və mən o güzgüdə ruhumun dərinliklərini, ömrümün ötüb keçən anlarına izlədim. Lap kino lenti kimi. Elə onda anladım ki, insanın ruhunda həm mələk, həm də şeytanın qərar tapması fikri əbəs deyilmiş. Və onlardan hansını bəsləyib ruhunda böyütsən, həyatın da buna uyğun olacaq. Mən həyatın həqiqətini o ağ tavana baxaraq dərk elədim. O həqiqət mənə əyan olandan sonra, özüm hərəkətsiz düşüb yataqda qalsam da, ruhum dirçəldi, öz əqidəm uğrunda savaşmağa güc tapdım. Bundan sonra ruhumdakı şeytanı bir küncə sıxışdırdım, ona əl-qol açmağa imkan vermədim. Vicdanıma xilaf çıxmamaqla, edilən yaxşılıqları unutmamaqla, ehtiyacı olana yardım edərək ruhumdakı mələyi böyütməyə, daim onu bəsləməyə başladım ki, vədəm çatanda dünyadan könül rahatlığı ilə köç edə bilim.

**Aşot:** - *(üz-gözünü turşudub)* Cənab mayor, bu fəlsəfənin nə mənim babama, nə də Nərminəyə aidiyyatı yoxdur.

**Fedya:** - Səbr elə. Hara tələsirsən? Onsuz da burada vaxt donub. İndi bir-bir deyəcəm sənə. Sən uşaqlıqdan içindəki şeytanı qidalandırıb böyütməklə məşğul idin. Özün böyüdükcə o da səninlə bərabər böyüyürdü.

**Aşot:** - *(səbirsizliklə sözünü kəsir)* Olmadı səninki. Əgər mən belə idimsə, sən də mənim ən yaxın dostum idin. Deməli, sən də mənə oxşamısan.

**Fedya:** - Yox, mən elə bilirdim ki, biz dostuq. Amma getdikcə başa düşürdüm ki, bir-birimizə qətiyyən oxşamırıq, əks qütblərin adamıyıq. Yanılmışammış. Təəssüf ki, bunları gec dərk etdim. Öz həyatımın içindən sən boylandın mənə. *(kinayə ilə)* "Yaxın dostum, balaca Aşot". Aylarla gözümü zillədiyim o ağ tavanda gördüyüm həyatımda ən tünd, ən boz ləkə sən idin. Bunu o qədər aydınca gördüm ki. Çətin də olsa sənin qəddarlığının məntiqini çözə bildim. Cavab sadə idi: sənin ruhunda yalnız şeytan böyümüşdü, bəlkə də böyüyüb yanındakı mələyi də yerli-dibli udmuşdu. Onda anladım ki, sən heç vaxt mənim dostum olmamısan. Sən heç kimin dostu olmamısan, ola bilməzsən. Ümumiyyətlə, sənin üçün nə dostluq, nə sevgi anlayışı yoxdur. Sənin içində ancaq nifrət, kin, amansızlıq var. Sən sevgi yoxsulusan. İndi fikirləşəndə, bütün bu həqiqətlər mənim üçün açılanda dəhşətə gəlirəm. Ona görə yox ki, biz səninlə sonra ayrı cəbhələrdə döyüşməli olduq. Yox! Ona görə dəhşətə gəlirəm ki, sənin uşaq ruhunda, o balaca qəlbində bu qədər nifrət necə əmələ gəlmişdi? Bunu kim yaradıb? Baban? Yox! Bəlkə heç baban da nifrətlə bu qədər zəhərlənməmişdi. Əgər babanın nifrəti müsəlmanlara, türklərə qarşı ilan zəhəri idisə, səndəki öldürücü əqrəb zəhəri idi. Hə, sən uşaqlıqdan balaca əqrəb idin. Yaxınlaşdığın hər yerə zəhər, üfunət və ölüm daşıyan balaca, murdar varlıq! Böyüdün, səninlə birgə

→ 20

